**ABİTURİYENTLƏRİN NƏZƏRİNƏ!**

**Astara Pedaqoji Kollecinə (APK) qəbul olunmuş abituriyentlər aşağıda göstərilən sənədləri DİM tərəfindən müəyyən olunmuş müddətlərdə APK-da yaradılmış Sənəd Qəbulu Komissiyasına şəxsən təqdim etməklə qeydiyyatdan keçməlidirlər:**

1. Şəxsiyyət vəsiqəsinin surəti - 2 ədəd (əsli də olmaq şərti ilə);
2. Təhsil haqqında sənədin əsli (şəhadətnamə və ya attestat);
3. Sağlamlıq haqqında arayış;
4. Fotoşəkil (3*4 ölçüdə) – 6 ədəd;
5. İlkin hərbi qeydiyyata alınma haqqında vəsiqənin surəti (16 yaşı tamam olan oğlanlar üçün) – 2 ədəd;
6. APK-ya qəbul olunma haqqında Dövlət İmtahan Mərkəzinin (DİM) saytından götürülmüş bildiriş (DİM-in saytından çap edilir);
7. İllik təhsil haqqının tam məbləğdə ödənilməsi haqqında qəbzin əsli və surəti (ödənişli əsaslarla qəbul olanlar üçün). Ödəniş APK-nın Kapital bankda olan aşağıdakı müvafiq hesabına ödənilməlidir.

**APK-nın bank rekvizitləri**

**B1. Benefisiar (alan bank)**

| | |
|---|---|
| Adı | - Astara KB |
| Kod | - 200769 |
| VÖEN | - 9900003611 |
| Hesab | - AZ37NABZ01350100000000001944 |
| S.W.I.F.T. | - AIIBAZ2X |

**B2. Alan müştəri**

Adı: Astara rayonu üzrə M.İ.

Hesab № AZ08AİİB32051019447600201176

VÖEN - 3700004621

**AZƏRBAYCAN RESPUBLİKASININ Müvafiq QANUNLARINA əsasən "Xüsusi güzəşt və imtiyazları olan tələbələr"dən tələb olunan əlavə sənədlər:**

**1. Məcburi köçkün statusu olan Azərbaycan Respublikası vətəndaşları:**

1. Abituriyentin doğum haqqında şəhadətnaməsinin notarial qaydada təsdiq edilmiş surəti;
2. Abituriyentin məcburi köçkün vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;
3. Valideynlərinin şəxsiyyət vəsiqələrinin surəti;
4. Valideynlərinin nigah haqqında şəhadətnaməsinin surəti;
5. Valideynlərinin məcburi köçkün vəsiqələrinin notarial qaydada təsdiq edilmiş surəti.

**2. 18 yaşınadək hər iki valideynini itirmiş və yaxud bir valideyni vəfat etmiş, o biri valideyni isə I və ya II qrup əlil olan valideyn himayəsindən məhrum olmuş 23 yaşınadək şəxslər:**

1. Abituriyentin doğum haqqında şəhadətnaməsinin notarial qaydada təsdiq edilmiş surəti;
2. Valideynlərinin nigah haqqında şəhadətnaməsinin notarial qaydada təsdiq edilmiş surəti;
3. Vəfat etmiş valideynin ölüm haqqında şəhadətnaməsi və digər valideynin şəxsiyyət vəsiqəsinin surəti, I və ya II qrup əlillik haqda kitabçanın (əgər olmazsa müvəqqəti olaraq əvəzinə “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi”nin Tibbi-Sosial Ekspert Komissiyasının (TSEK) verdiyi əlillik haqqında arayış) notarial qaydada təsdiq edilmiş surətləri.

**3. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatlarla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqları olan tələbələr:**

1. Abituriyentin doğum haqqında şəhadətnaməsinin notarial qaydada təsdiq edilmiş surəti;
2. Valideynlərinin şəxsiyyət vəsiqələrinin surəti;
3. Valideynlərinin nigah haqqında şəhadətnaməsinin surəti;
4. Notarial qaydada təsdiq edilmiş “Müharibə əlili” olması barədə kitabçanın (olmazsa müvəqqəti olaraq əvəzinə “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi”nin Tibbi-Sosial Ekspert Komissiyasının (TSEK) verdiyi əlillik haqqında arayış) surəti.

**4. Şəhid ailəsinin üzvü olan abituriyentlər:**

1. Abituriyentin doğum haqqında şəhadətnaməsinin notarial qaydada təsdiq edilmiş surəti;
2. Ailə tərkibi haqqında arayış;
3. Şəhidlik haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti.

**5. Hərbi əməliyyatlarda itkin düşən və məhkəmə tərəfindən ölmüş elan olunan vətəndaşların övladları:**

1. Abituriyentin doğum haqqında şəhadətnaməsinin notarial qaydada təsdiq edilmiş surəti;
2. Valideynlərinin nigah haqqında şəhadətnaməsi və şəxsiyyət vəsiqəsinin surəti;
3. “Azərbaycan Respublikasının Müdafiə Nazirliyi” (DİN) tərəfindən valideyninin Azərbaycan Respublikasının müdafiəsi zamanı “hərbi əməliyyatlarda itkin düşməsi və məhkəmə tərəfindən ölmüş elan olunması” haqqında arayış və ya əmrdən çıxarış.

**Sənədlər DİM tərəfindən müəyyən olunmuş müddətlərdə aşağıdakı ünvanda qəbul olunur:**

**Astara şəhəri, Heydər Əliyev prospekti, 124.**

***Tel :* (025) 225 — 24 — 43**